# GÖY QURŞAĞI UŞAQ JURNALI

4(44) iyul-avqust 2013



## XÜSUSİ BURAXILIŞ





**Babayeva Ayla.**
İncəsənət Gimnaziyasının rəssamlıq fakültəsinin 3-cü sinif şagirdi.

**Həsənov Aydın.**
İncəsənət Gimnaziyasının rəssamlıq fakültəsinin 4-cü sinif şagirdi.

# mənim rəng dünyam

**Abdullayeva Lətafət.**
İncəsənət Gimnaziyasının rəssamlıq fakültəsinin 2-ci sinif şagirdi.

**Tağızadə Fidan.**
İncəsənət Gimnaziyasının rəssamlıq fakültəsinin 8-ci sinif şagirdi.







# Yay

**Yaydır... Günəş parlayır,**
**Hava saf, hər yan açıq.**
**Yaşıl bağlar çağırıb**
**Bizə deyir: "Seyrə çıx!"**

**Budaqları bəzəyib**
**Qara gözlü albalı.**
**Ətirli bal kimidir**
**Qaysı, göyəm, şaftalı.**

**Yerə əyib başını**
**Bütün ağaclar bardan.**
**Qanad açıb sərçələr**
**Uçuşur yuvalardan.**

**Günəş qızır, çimirik**
**Hər gün dənizdə, çayda.**
**Bizə mahnı söyləyir**
**Axan bulaq da, çay da.**

*Mirmehdi Seyidzadə*

DOST ÖLKƏLƏRƏ SƏYAHƏT:

# Əzizləyər hər el səni öz adətilə

**Salam, dostum! Baharı adlayıb yaya gəldik. Amma elə bahar yaşadıq – unudulmaz! Yazda möhtəşəm yarışma, sonra isə bayram keçirdik. İki gün ərzində Türkiyəni, Rusiyanı, Gürcüstanı, Doğan Günəş ölkəsini, Dumanlı Albionu, Hindistanı, Koreyanı, Amerikanı gəzdik-dolaşdıq. Özü də yerimizdən tərpənmədən. Yəni tərpənməyinə tərpəndik, amma Azərbaycandan çıxmadıq.**



Məktəbli dostlarımız sağ olsunlar, bizə dünyanı göstərdilər. Ondan başlayım ki, F.Köçərli adına Respublika Uşaq Kitabxanası Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə ümummilli lider Heydər Əliyevin 90 illiyinə həsr olunmuş «Dost ölkələrə səyahət: Əzizləyər hər el səni öz adətilə» adlı yarışma keçiriləcəyini elan etdi. Səkkiz uşaq evi və internat səsimizə səs verdi. Onlar, dediyim kimi, Yaponiya, Britaniya, Türkiyə, Hindistan, Rusiya, Amerika, Gürcüstan, Koreya dövlətlərini təmsil etməli idilər.



İştirakçılar 6 nominasiya üzrə yarışırdılar: təmsil elədikləri dövlət barədə təqdimat slaydlarını, milli rəqs, milli geyim nümunələri göstərmək, kitab sərgiləri təşkil etmək, milli gəlinciklər və ya applikasiyalar hazırlamaq, bir də nağıl qəhrəmanlarından bir və ya ikisini təqdim etmək.

Yarışmanın açılışı aprelin 26-da Rəşid Behbudov adına Dövlət Mahnı Teatrında oldu. İki gün davam edən yarışmanın qalibləri isə yekun konsertdə, mayın 2-də bəlli oldu.





Uşaqlar çox ciddi hazırlıqlar gördülər. Axı onların işini sanballı münsiflər heyəti - Mədəniyyət və Turizm Nazirliyinin kitabxana sektorunun müdiri **Lətifə Məmmədova**, Bakı Xoreoqrafiya Məktəbinin direktoru **Neylüfər Kərimova**, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin əməkdaşı, WEB texniki şöbəsinin müdiri **Aydın Cəfərov**, sənətşünas **Kübra Əliyeva,** Azərbaycan Yazıçılar Birliyinin üzvü **Reyhan Şıxlinskaya** – dəyərləndirəcəkdi.
Üstəlik, adını çəkdiyim dövlətlərin səfirliklərinin nümayəndələri də yarışmaya baxmağa gəlmişdilər.





**İŞTİRAKÇILARLA SƏNİ TANIŞ EDİRƏM:**

**Yaponiya** – SOS uşaq kəndi
**Böyük Britaniya** – Zəngilan 4 saylı məktəbi
**Türkiyə** – Sumqayıt şəhər 2 saylı internat məktəbi
**Gürcüstan** - A.Makarenko adına internat tipli gimnaziya
**ABŞ** – 2 saylı valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün internat məktəbi
**Rusiya** – 3 saylı uşaq evi
**Koreya** – «Ümid yeri» uşaq məskəni
**Hindistan** – 2 saylı uşaq evi

**Tədbiri Azərbaycan Dövlət Uşaq Filarmoniyasının rəqs kollektivi gözəl ifaları ilə açdı. Uşaqlar «Heydər Əliyev və uşaqlar» adlı videoçarxa baxandan sonra isə yarışma başladı!**

**İndi gəl addım-addım yarışmanı izləyək!**

# SAKURA ÇİÇƏKLƏYƏNDƏ

**Doğan Günəş Ölkəsi, Sakuranın vətəni... Yaponiya sevərlər onu belə adlarla əzizləyirlər. Albalı çiçəyi – sakuranın bu ölkədə yeri ayrıdır. Onun çiçəkləməsi şərəfinə orada xüsusi bayram keçirirlər.**





**SOS uşaq kəndinin təqdimatında bu gözəl ölkəyə virtual səyahət etdik. Fuci dağının qarlı zirvəsindən ətrafı seyr etdik, Kiotoya, Tokioya, Hirosimanın Sülh abidəsinə, yaşıl dərələrə, paqodalı evlərə baxdıq. Yaponların öz adət-ənənələrinə nə qədər dəyər verdiklərinin şahidi olduq. Bilirsənmi, dostum, Yaponiya texniki, iqtisadi cəhətdən çox inkişaf edib. Burada göydələnlərin sayı hesaba gəlməz, amma necə müasir evdə yaşamasından asılı olmayaraq, hər bir yapon çalışır ki, evinin bir küncünü əsl yapon üslubunda döşəsin: yerə tatami salır, evdə ayaqqabı ilə gəzmir. Milli geyim olan kimono da heç zaman dəbdən düşmür.**











Yaponların folkloru çox zəngindir. Xokku yazmaq tək orada deyil, bütün dünyada müdriklik əlaməti sayılır. Onların nağılları da çoxdur. Uşaqlar "Bal" nağılını göstərdilər.



Xana bal gətirdilər. O, balı iyləyib feyziyab oldu. Gizlədi ki, sonra yeyər. Xidmətçini çağırıb dedi: "İbadətgahda bir zəhər gizləmişəm, bala bənzəyir. Qoyma heç kim əl vursun. Evi təmizlə, çıraqları yandır". Çıxıb getdi. Xidmətçi isə donquldanmağa başladı: "Kaftarın biri, məni aldadır. Guya bilmirəm ki, baldır, zəhər deyil". Dadına baxmaq istəyincə hamısını yedi. Sonra da təlaşa düşdü ki, bəs balın yerinə nə qoyum? Biclik işlətdi. Xanın sevimli fincanını salıb sındırdı. Özü də qırıqların yanında yerə uzandı. Xan gəlib gördü ki, ev qaranlıqdır. Səsləndi: "Ay xidmətçi, çıraqlar niyə yanmır?" Zarıltı eşitdi: "Ay... ölürəm, dua oxuyun". Xan gördü ki, xidmətçisi yerdə uzanıb, soruşdu: "Niyə ölürsən?" "Xan sağ olsun, pəncərəni açıq qoymuşdum, pişik içəri girib fincanınızı sındırdı. Mən də utandığımdan sizin gizlədiyiniz zəhəri yedim. İndi ölürəm". Xan hiyləni anladı, dedi: "Eh, guya bilmirdin ki, o, baldır. Qoymadın heç dadına baxam. Dur ayağa, sən ölən deyilsən..."



**Xanla nökəri səhnəni alqışlarla tərk edəndən sonra isə kimonolu qız lentlərlə yapon milli rəqsini ifa elədi.**







# Dumanlı Albionun buludları çəkildi

**Çoxlarının İngiltərə adlandırdıqları dövlətin əsl adı Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığıdır. Bunu bizə Zəngilan 4 saylı orta məktəbinin uşaqları dedilər. Hələ bu ölkəyə şair və yazıçılar "Dumanlı Albion" da deyirlər. Çünki ilin çox günü orada yağış yağır, duman olur.**



Elə sisli-çiskinli bir havada qədim ölkənin cəngavərləri – anqllarla sakslar böyük ekranda normanlarla vuruşmağa başladılar. Sonra qraflıqlar quruldu, Böyük Britaniya krallıqda birləşdi. Paytaxtı London seçildi. Şəhərin dörd yanına – Sitiyə, Vestminsterə, İstsayda, Vestsayda (Şərq, Qərb hissələrə) səyahət etdik, Temzadan keçib «London Eye»a (Londonun gözü – iri əyləncə çarxına), saraylara, Biq Benə, körpülərə, Kembric Universitetinə baxdıq, onlar haqda məlumat aldıq.



Biz videosəyahətdə Britaniya ilə tanış olduqdan sonra səhnədə qız və oğlanlar da bir-birlərilə tanış oldular: ingilislərin milli geyimində xalq rəqsi «Tanışlığ»ı ifa elədilər.

Sonra səhnəyə Pişik, Siçan, İnək, Kəndli, Qəssab və Qız çıxdılar. Onlar ingilislərin məşhur «Siçan və Pişik» nağılının qəhrəmanları idilər. Pişik Siçanın quyruğunu qopardı. Siçan yalvardı ki, qaytarsın, amma Pişik ona süd gətirməyincə quyruğu verməyəcəyini dedi. Siçan İnəkdən süd istədi, İnək onu Fermerin yanına ot dalınca yolladı. Siçan Fermerdən ot istədi, o isə dedi ki, Qəssabdan ət gətirməyincə heç nə verməz. Qəssab Siçandan çörək istədi. Təkcə balaca qızcığazın Siçana yazığı gəldi. Ona çörək verdi. Siçan da çörək verib ət, ət verib ot, ot verib süd, süd verib quyruğunu geri aldı. Nağıl bitdi, qəhrəmanlar dağılışdılar.





Tamaşaçılarla isə orta əsrlər xanımının görkəmində olan kiçik ledi sağollaşdı. Gözəl, uzun donu və yaraşıqlı çətiriylə səhnəni dolaşdı, saat 5 çayını içdi, gəldiyi zərifliklə də getdi, xeyli alqış aldı.







# TÜRKÜK, türkü çağırırıq

Korкma, sönmez вu şafaкlarda yüzen al sancaк,
Sönmeden yurdumun üstünde tüten en son ocaк.
O вenim milletimin yıldızıdır parlayacaк,
O вenimdir, o вenim milletimindir ancaк.

Türkiyənin möhtəşəm himninin sədaları altında Sumqayıtın 2 saylı internat məktəbinin uşaqları səhnəyə çıxdılar. Vətənpərvər şeirlər bir-birini əvəzlədi, iki ölkənin bayraqları dalğalandı.

Çox keçmədi, türk cocuqların sevimli nağıl qəhrəmanı Keloğlan da göründü. Bir az özünü təriflədi, sonra isə ölkəsini virtual olaraq gəzməyə dəvət elədi. Ekranda bir-birinin ardınca Türkiyənin tarixi məkanları – Kahramanmaraş, Diyarbakır, İsparta, Adıyaman, gözəllər gözəli İstanbul, turizm mərkəzləri, göz işlədikcə uzanan yaşıllıqlar, masmavi dənizlər, nəfis xalçalar toxuyan incə barmaqlar, incədən incə saxsılar göründü.

"Azərbaycan-Türkiyə" mahnısının sədalarını milli musiqi əvəzlədi. Uşaqlar milli geyimdə, əllərində şam gözəl rəqs elədilər, halay çəkdilər, nəğmə oxudular.

Sərgi guşəsində isə qardaş ölkənin yazarlarının əsərlərini, öz əlləri ilə hazırladıqları xalq tətbiqi sənət nümunələrini nümayiş etdirdilər.









# Şahinlər yurd Gürcüstan



Bir də gürcülər xor oxumağı çox sevirlər. İki «genasvale» bir yerə düşdümü, mahnı gözlə. Elə A.Makarenko adına internat tipli gimnaziyanın tələbələrinin hazırladıqları videoçarx da «Şalaxo» sədaları ilə müşayiət olunurdu. Gürcüstan haqda məlumatları bu ölkənin gözəl təbiətinin görüntülərilə bahəm izlədik.

Ekrandakı xor bitən kimi səhnədən «Mimino»nun mahnısı eşidildi. Gimnaziyanın tələbəsi məşhur gürcü müğənni Vaxtanq Kikabidzenin oxuduğu «Çitto-qrito» mahnısını səsləndirdi.



du –



Böyük Qafqaz dağlarını paylaşdığımız qonşumuz var – Gürcüstan. Təbiətimiz də oxşardır, xasiyyətimiz də. Dilimiz, dinimiz ayrıdır, amma rəqslərimiz, qonaqpərvərliyimiz, mərdliyimiz bənzəyir.





Ardınca isə gözəl milli rəqsi izlədik.

Rəqs bitəndən sonra səhnəyə bir toppuş balaca çıxdı. Əvvəl elə bildik, danışa bilmir, özü də azıb. Amma aparıcı onu görən kimi tanıdı: «Bay, qardaşım, Baco, sən buraya necə gəlmisən?» Onun sözlərindən belə başa düşdük ki, Baco ikiaylıqdır. Bacısı Manana da gəlincə «ikiaylıq» Baconun dili açıldı: «Mən Bacoyam, pələng südü əmmişəm. Ona görə güclüyəm, kəndləri, şəhərləri, ölkələri dolaşıb Gürcüstanı, onun nağıllarını tanıdıram», - deyə qürrələndi.

Sonra da bacısıyla qardaşının əlindən tutub onları özüylə apardı.



# Azadlıq

Amerika Birləşmiş Ştatlarının təqdimatı yarışmanın ikinci gününə təsadüf edirdi. Açılış 2 saylı valideyn himayəsindən məhrum uşaqlar üçün internat məktəbinin nəfəsli musiqi orkestrinin canlı ifası ilə başlandı. Azərbaycanın Dövlət Himnini mükəmməl səsləndirəndən sonra orkestr başqa musiqilər də ifa etdi.





Bu dəmdə Minni Mausla Kovboy Bill səhnəyə gəldilər. Bill hamını ingiliscə salamladı, sonra da dedi ki, elə bilməyin, azərbaycanca bilmirəm, axı burada mənim çoxlu dostum var. Bill qonağını, dostu Cırtdanı səhnəyə çağırdı: «Cırtdan, Amerikaya xoş gəlmisən. Gəl Minni Mausla da tanış ol». Cırtdanın kədərli olduğunu görən Bill dedi: «Bilirəm, dostum, niyə qəmlisən. Sizin ölkənizdə xeyli uşaq yurdundan didərgin düşüb. İnana bilmirəm ki, o boyda Divə qalib gələn Cırtdanın yurdu düşmən tapdağı altında qalıb».



Cırtdan cavab verdi: «Bilirsən, Bill, Azərbaycan xalqı həmişə sülhsevər xalq olub, qonaqpərvərliyimizlə ad çıxarmışıq. İnşallah, gün gələr, Qarabağ məsələsi də həll olunar, hamı torpağına qayıdar».

diyarında

Bill Qarabağ atlarını çox görmək istədiyini söylədi. Dedi ki, fikir eləmə, sənin mənim kimi dostun var. Həmişə sənə kömək eləməyə hazıram, əsas odur ki, sizin igidlər atdan düşəndən sonra da atlana bilsinlər. Sonra Cırtdanı özü ilə Amerika gəzintisinə apardı.




Ona və tamaşaçılara Amerika tarixini ətraflı videoçarx vasitəsilə göstərdi. Ekranda nümayiş olunan görüntüləri aparıcı qız şərh elədi. Kolumbun Amerikanı kəşf eləməsindən tutmuş Disneylendədək hər şeyi danışdı.







Al-əlvan işıq seli səhnəni rəngləndirdi: kovboy qız və oğlanlar şux rəqs edib xeyli alqış qazandılar.
Orta məktəblər arasında yeganə olan orkestrin çıxışı ilə «amerikalılar» izləyicilərlə sağollaşdılar.

# RUS yarmarkası

Sərgidə Maşanın, Ayının, Canavarın, Dovşanın maketlərini, rus samovarı və ona dolanmış bublikləri, karavayları, piroqları, nəfis oymaları, rəngli xoxlomanı görənlər qeyri-adi şou görəcəklərindən əmindilər. Və... başlandı!

Ekrandakı geniş Rusiya çölləri, yaşıl tarlalar, qızılı zəmilər, qarlı təpələr, bolsulu çaylar həzin, axıcı musiqi sədaları altında göz oxşadı. Yuri Qaqarinin kosmosa uçduğu anları seyr etdik. Himni dinləyə-dinləyə Moskvaya, Sankt-Peterburqa, Volqoqrada, Yakutiyaya, Tatarıstana, Sibirə - geniş Rusiyanın dörd bir yanına baş çəkdik.

Videoçarxda 3 saylı uşaq evinin şagirdləri təqdimatı necə hazırladıqlarını göstərərək, Rusiyanın tarixindən, onun Azərbaycanla əlaqələrindən danışdılar. Uşaqların Rusiyanın xəritəsini toxumalarının, bayrağını biserlə tikməklərinin şahidi olduq. Onlar şimal qonşumuzun şəhərləri, təbiəti, heyvanlar aləmi haqda geniş məlumat verdilər. Rusiyadakı yaşıdlarının həyatından danışdılar. Dahi Azərbaycan müğənnisi Müslüm Maqomayevin "Azərbaycan" mahnısı ilə bitən videoçarxı izləyənlər hərarətlə alqışladılar.

Səhnə isə rəqs edən qızların əlinə keçdi. Petruşkanı araya salıb o ki var, oynatdılar. Petruşka hamını rus yarmarkasına, rus nağıl dünyasına dəvət elədi. Biləyən səhnəyə kitabıyla, musiqiçi Quslya balalaykasıyla, rəssam Tyubik palitrasıyla, həkim Pilyulkin böyük termometrilə, astronom Steklyaşkin durbiniylə təşrif buyurdular. Bilməz də gəlib özünü göstərdi və dostlarının əlindən tutub apardı.

Canavarın əlindən qaçan Dovşanı düşməni burada da tapdı. Uşaqların önündə rəqs edən zaman Dovşan Canavarın ayağını əzdi. Sonra da başını qatıb aradan çıxdı. Canavar da qaldı bağıra-bağıra.

Maşa ilə Ayı da gəldilər, rəqs elədilər. Qoğalı Ayı, Canavar, Dovşan yeməyə çalışsalar da, alınmadı. Axırda Tülkü Qoğalı tovlayıb apardı.

Səhnədə isə baba ilə ailəsini dərdə salan "Turp" nağılı cərəyan edirdi. Başabəla turp onları elə yordu ki, axırı onun ləkdən qoparılmasını gözəl rəqslə bayram elədilər.














**Sübh Təravəti, Sübh Şehi Ölkəsi adlandırılan Koreya da Azərbaycan kimi ikiyə bölünüb – Şimali və Cənubi. Amma onun cənub hissəsi, Cənubi Azərbaycandan fərqli olaraq, müstəqil dövlətdir. Cənubi Koreyanı koreyalılar Xanquk, bəzən isə Namxan (yəni Cənub Xan) adlandırırlar. Paytaxtı Seuldur.**

«Ümid yeri» uşaq yaşayış məskəninin hazırladığı videoçarxda həm də deyildi ki, cəmi iki ay yaz olan Koreyada havalar çox soyuq keçir. Burada «hanok» adlanan evlər çoxdur, onlar taxtadan, mismar istifadə olunmadan tikilir. 1960-cı ildən isə koreyalılar qərb üslubunda evlər tikməyə başlayıblar. Əsasən düyüdən hazırlanan xörəklər və kimçi yeyirlər. Bayram günlərində milli geyimlərini geyirlər.

Koreya çox zəngin mədəniyyətə sahibdir. Bu ölkədə musiqini, oxumağı sevirlər. «Ümid yeri» uşaqlarının yelpiklə rəqsi də musiqisinin həzinliyi və hərəkətlərin zərifliyi ilə seçildi.

Sonra nağıl vaxtı başlandı. Koreyanın xalq nağıllarından biri də dövlətin yaranması haqdadır:
«Hamu adlı göylərdə yaşayan padşah vardı. Onun Hanvunq adlı oğlu vardı. Göydən baxıb insanların necə yaşaması ilə maraqlanardı. Atasından xahiş etdi ki, onu yerə buraxsın. Atası ona külək, yağış və Günəşi verib yerə göndərdi. Hanvunq adamlara əkinçilik öyrətdi, onlara xeyli kömək elədi.

Bir gün Şirlə Ayı gəlib dedilər ki, biz insan olmaq istəyirik. Hanvunq dedi ki, qaranlıq bir mağaraya gedin, ancaq sarımsaqla göyərti yeyin, 100 gündən sonra insan olacaqsınız.

Ayı dözdü. Şirsə bezdi, insan olmaq istəmədi, qaçdı. Amma Ayı qaldı.

O, insan olmağı o qədər arzulayırdı ki, 100 gün deyil, 21 günün sonunda bədəni dəyişdi. Gözəl bir qız oldu. Onun adını Um-Yo qoydular. O, Hanvunqa ərə gəldi. Onların Kammun adlı oğlanları oldu.
O, igid və səxavətli idi. Böyüyəndən sonra əraziləri genişləndirdi və böyük dövlətin, indiki Koreyanın əsasını qoydu».





Nağıl bitdikdən sonra uşaqlar Koreyada məşhur olan «Dost olmağın yolu» mahnısını elə koreya dilində oxudular. Mahnıda deyilirdi ki, ürəkdən bölüşsək, dost olarıq.










# Sübh təravəti - Koreya

# EKZOTİKANIN VƏTƏNİ - HİNDİSTAN



Delhi, Kəlküttə, Bombey, Aqra, Tac-Mahal, Qırmızı Saray… Hindistan zəngin tarixi, adətləri, memarlıq abidələri, geyimləri, musiqiləri, filmləri ilə dünyada məşhurdur.

Ən qədim mədəniyyətə sahib ölkədə fərqli dinlərin, millətlərin nümayəndələri yaşayırlar. Bir milyard iki yüz milyon əhalisilə dünya ikincisi olan Hindistana səfər etmək çox turistin arzusudur.

Burada tarix dəyişsə də, mədəniyyətə, adət-ənənələrə münasibət dəyişmir. Hələ də kasta quruluşu mövcuddur. Valideynlərə, ailədə bir-birinə hörmət ən yüksək tutulan dəyərlərdəndir.



Bütün bunları və daha artığını Suraxanı 2 saylı uşaq evinin hazırladığı videoçarxda izlədik. Bitkin filmə bənzəyən çarxda hindlilərin toy adətləri də göstərildi.

Onu da deyim ki, uşaqlar çox rəngarəng sərgi düzəltmişdilər. Milli geyimli gəlinciklərlə, çəkdikləri kompozisiyalarla bahəm, qəzetdən elə fil fiqurları düzəltmişdilər ki, adamı mat qoyurdu.




Ecazkar, riqqətə gətirən hind musiqisi səslənincə səhnədə qırmızı geyimli xanım rəqs etməyə başladı. Onun şən, çox hərəkətli rəqsinə digər qızlar da qoşuldular. Toy əhvalı ekrandan səhnəyə köçdü.

Qızlar rəqslərini bitirincə Nağılçı qızla balaca şahzadə səhnədə göründülər. Bu ölkədə inəyə sitayiş olunur, nağıllarda heyvanların adlarına tez-tez rast gəlmək olur. Fillər isə demək olar, hər bir hindlinin sərvətidir. Nağılçı xanım da dediyi şeirində meymunu, pələngi, zürafəni unutmadı:





**Kəsdi yağış, güldü hər yan.**
**Bax, necə rəqs edir İlan.**
**Dombalaq aşır Ayı**
**Ördək üzüb keçir çayı.**
**Tülkünün quyruğu şələ**
**Qoz-fındıq sındırır Dələ.**
**İnək böyürür yaman,**
**Meymun nə yeyir – banan.**
**Harada gizlənsə Pələng,**
**Tapır xallı Kəpənək.**
**Hamını yığıb bir yerə,**
**Görək, nə deyir Zürafə:**
**Ulu Vişnu, müdrik Vanu,**
**Xilas etdilər dünyanı.**

# VƏ... QALİBLƏR!

*Mayın 2-də uşaqlar yenə Rəşid Behbudov adına Mahnı Teatrına yığışdılar. Konserti başlayan Bakı Xoreoqrafiya Məktəbinin şagirdləri gözəl milli rəqsləri ilə uşaqların həyəcanını bir az azaltdılar. Münsiflər qalibləri seçərkən tamaşaçılar ən yaxşı çıxışları bir daha izlədilər. Bildirim ki, bəzi nominasiyalarda qazandıqları xallar eyni olduğundan bir neçə qalib oldu.*

**Milli geyim üzrə – «SOS» uşaq kəndi** qalib oldu. Tamaşaçı rəğbəti qazanan qulluqçu rolunun ifaçısı **Arzu Şükürova** da diplom aldı. Yaponiya səfirliyinin nümayəndəsi uşaqları təbrik etdi, hədiyyə verdi. «SOS» kəndinin uşaqları da öz əllərilə düzəltdikləri hədiyyəni səfirliyə bağışladılar.

**Milli rəqs üzrə – 2 saylı valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün internat məktəbi** qalib oldu. ABŞ səfirinin xanımı **Feyz Morninqstar** uşaqların çıxışını çox bəyəndiklərini bildirdi, onlara hədiyyə verdi. Tamaşaçı rəğbəti qazanmış nəfəsli orkestrin bədii rəhbəri **Fərid Afiyatulov** diplomla təltif olundu. Bakı Xoreoqrafiya Məktəbinin direktoru **Neylüfər Kərimova** da məktəb adından uşaqlara hədiyyə verdi.

Tamaşaçı rəğbəti qazanan **Sumqayıt şəhər 2 saylı internat məktəbi**ndən türk nağıl qəhrəmanı Keloğlanın ifaçısı **Nicat Xəlilov**u, həmçinin «Azərbaycan-Türkiyə» şeirinin ifasına görə **Yeganə Osmanova**nı Türkiyə səfirliyinin əməkdaşı təbrik etdi, məktəbin bütün uşaqlarına hədiyyə bağışladı.



**Videoçarxlar üzrə – Sumqayıt şəhər 2 saylı internat məktəbi** qalib oldu. **Aydın Cəfərov** məktəbə nazirlik tərəfindən bir noutbuk bağışladı.

**Gəlinciklər və aplikasiyalar üzrə – Suraxanı 2 saylı uşaq evi** qalib oldu. 3 yaşlı **Azər Ömərov** tamaşaçı rəğbəti qazanaraq diplom aldı. Hindistan səfirliyindən təbrik və hədiyyələr alan uşaqlar öz əlləri ilə düzəltdikləri fil heykəlcik və gəlinciyi səfirlik əməkdaşına təqdim etdilər.

Tamaşaçı rəğbəti qazanmış A.Makarenko adına internat tipli gimnaziyanın tələbəsi **İmanov Bayrı** («Mimino» filmindən mahnı və rəqs) diplom və hədiyyə aldı.

**Kərimli Lamiyə** (Zəngilan 4 saylı məktəbi) britaniyalı xanımın geyimini gözəl təqdim etdiyinə görə diplom aldı.




**Milli geyim və rəqs üzrə** qalib olan **«Ümid yeri» uşaq yaşayış məskəni**ni Koreya səfirliyinin müşaviri **Con Sinq Min** təbrik etdi. Koreya xalq nağılını danışan **Samilə Fərəcova** tamaşaçı rəğbəti qazandığı üçün mükafata layiq bilindi. Koreya-Azərbaycan Dostluq Cəmiyyəti isə «Ümid yeri» uşaq sığınacağına televizor hədiyyə etdi.

**Milli rəqs üzrə** - Zəngilan 4 saylı məktəbi də qalib oldu.

**Kitab sərgisi üzrə** və **nağıl qəhrəmanlarının ən yaxşı təqdimatı üzrə** - **3 saylı uşaq evi** qalib oldu. **Elina Rəhimova** (Maşa) və **Orxan Puçaxov**a (Ayı) xüsusi hədiyyə və diplom verildi.

148 bal toplayan **3 saylı uşaq evi** həmçinin yarışın kubokuna sahib çıxdı.

Sumqayıt 2 saylı internat məktəbi isə tədbirdə iştirak edən bütün səfirliklərin əməkdaşlarına həmin ölkələrin biserlə tikilmiş bayrağını, kitabxanamıza isə Azərbaycan bayrağını ərməğan etdi.

F.Köçərli adına Respublika Uşaq Kitabxanasının müdiri **Fizurə Quliyeva** bütün iştirakçılara və münsiflərə təşəkkürünü bildirərək, onlara xüsusi hədiyyələr, iştirakçı uşaq evlərinə digital fotoaparat, uşaqların hər birinə isə kitab və «Göy qurşağı» jurnalı bağışladı.





# Nələr olur dünyada?

ABŞ-ın Baknell universitetinin tədqiqatçıları Cənubi Sudanda elmə məlum olmayan heyvan tapıblar. Bu, yarasaların fərqli növüdür. Onun xarici görkəmi bambuk ayısına, yəni pandaya oxşayır. Tədqiqatçılar belə qənaətə gəliblər ki, o çox nadirdir. «Panda-yarasa»nı yeni Niumbaha növünə aid ediblər.



Banan təkcə sarı deyil, həm də qara və qırmızı rəngdə olur. Qırmızı bananın ləti daha zərif olur və onu bir yerdən başqa yerə tədarük eləmək olmur, yolda xarab olur. Seyşeldəki Mao adası dünyada sarı, qırmızı və qara bananların yetişdiyi yeganə yerdir. Bu bananlar yeməlidir.





Dünyanın ən hündür lifti Baylonq Çinin Xunan vilayətindədir. O, turistləri 30 m yüksəkliyə, qayalığın başındakı müşahidə meydançasına qaldırır. Liftin ikimərtəbəli kabinasına 50 nəfər yerləşir. Bu qayalıqlarda 3 belə lift var, hər birinin yükqaldırma qabiliyyəti 3750 kq-dır. Liftin divarları şəffafdır. Onun tikintisi 1999-cu ildə başlanıb, 2002-ci ildə bitib. 18 milyon dollara başa gəlib. Liftdə zəlzələ detektoru var, təhlükə zamanı hər üç lift insanları çox qısa zaman ərzində təxliyə etməlidir. Baylonq lifti Ginnesin Rekordlar Kitabına daxildir.



İnsanın nəfəsi onun əl izləri kimi unikal izlər qoyur. Nəfəsin izinin kimyəvi tərkibi unikaldır və onun vasitəsilə insanın kimliyini müəyyən etmək olar. Ondan həmçinin xəstəliklərin diaqnozunda da istifadə etmək olar.

Səidin valideynləri məzuniyyətdən qayıdırlar. Ev alt-üstdür.
- Səid, nə olub burada?
- Dostlarım gəlmişdilər.
- Bəs royal hanı?
- Verdim, qulaq assınlar…



- Ata, düzdür ki, adamlar meymundan yaranıblar?
- Hə, oğlum.
- Onda anamla sən məni övladlığa götürmüsünüz?

# Birlikdə gülək

*- Al, bala, bu qaşıq gümüşdür, - nənə nəvəsinə deyir. – Gümüş mikrobları öldürür.*
*- Nədir, indi mən içində ölü mikrob olan çay içəcəm?*

*- Görürsən, Ayla, bu balaca uşaqların heç kimi yoxdur: nə ataları, nə anaları, nə nənə-babaları, nə dayıları, nə xalaları… Gəl onlara bir hədiyyə edək!*
*- Hə, ata! Gəl Səmayə xalamızı onlara bağışlayaq!*

Qadın mağazada xalça seçir:
- Mənə rahat bir xalça lazımdır, uşaq otağı üçün, çirkləndiyi tez bilinməyən.
- Neçə uşağınız var?
- Altı.
- O… Onda siz otağı asfaltlasanız, daha yaxşı olar.



Nənə kresloda oturduğu yerdə yatıb. Möhkəm xoruldayır. Nəvəsi isə onun jaketinin düyməsini fırladır. Baba:
- Ay bala, neyləyirsən?
- Başqa kanala keçirmək istəyirəm.



Ülfət anasına deyir:
- Ana, dondurma ver də.
- Yox, bir azdan nahar edəcəyik. Get, hələlik həyətdə oyna.
- Həyətdə heç kim yoxdur. Dondurma ver.
- Vermirəm. Evdə oyna.
- Yaxşı, onda gəl evcik oynayaq.
- Yaxşı, mən anayam, sən də ata.
- Hə, deməli, belə. Mən atayam, işdən gəlmişəm: «Ay arvad, nə oturmusan? İşin yoxdur? Görmürsən, uşaq nə istəyir? Dur, ona dondurma ver!»

# Çox oxusan – çox bilərsən






**Nodar Dumbadze**
**"Mən, nənəm, İliko və İllarion"**

"Bu kitabı oxuyanda o qədər güldüm ki, axırda ağladım", - yəqin, onu bitirəndən sonra dostlarına belə deyəcəksən.


























**Həsən bəy Zərdabi**
**“Təbiət və insan”**
Buradakı əsərlər Həsən bəy Zərdabinin 1960-cı ildə “Azərnəşr”də buraxılmış seçilmiş əsərlərindən götürülüb. Sadə dildə, yığcam və təsirli üslubda yazılmış bu əsərlərlə bir aləm kəşf edəcəksən, təbiət və insan barədə elmi təsəvvürlərin təzələnəcək.

**Etel Lilian Voyniç**
**“Ovod”**
Bu kitab hətta ən mətin, daş ürəkli insanları kövrəldib. Bir inqilabçı bu qədərmi mətin, səbirli, dönməz olar? Əsl qəhrəmanlıq hekayəsini oxuyub illər boyu unutmayacağından əminəm.

**Mövlud Süleymanlı**
**“And olsun əsrə...”**
Tarixi sevirsənsə, bu kitabı çox bəyənəcəksən. Kitabın dili elə axıcı, əsərdə baş verən hadisələr elə maraqlıdır ki, onu bir göz qırpımında oxuyub bitirmək istəyəcəksən.

**Nizami Zöhrabi**
**“Məkkədən doğan günəş”**
N.Zöhrabi İslam dininin həqiqi əzəmətini göstərmək üçün Məkkə əhlinin, o cümlədən, ərəb tayfalarının İslama qədərki məişət və əxlaqını, bütpərəstliyi tarixi faktlarla və düzgün şərh edir.

**Səmayə Hüseynoğlu**
**“Bir topa buludam yağmamış”**
Bu kitabda lirikadan tutmuş Azərbaycan taleyinin müxtəlif dönəmlərinə, Qarabağa, dünyada baş verən hadisələrə həsr olunmuş şeirləri oxuya bilərsən.
















**“Rusiya xalqlarının nağılları”**

Kitabda Rusiyada yaşayan bir çox xalqların - tuva, yakut, tatar, kalmık və s. - bir-birindən maraqlı nağılları toplanıb.

**Asif Hüseynli**
**“Qədim türk hökmdarları”**

“Dünya hökmdarları” silsiləsinə daxil olan kitabda qədim dövrdə mövcud olmuş bir sıra türk dövlətlərinin hökmdarları haqqında məlumatlar toplanıb.

**Teyyub Qurban**
**“Ömür yolları”**

Kitab müəllifin 30 ilə yaxın dövr ərzində mətbuatda dərc elətdirdiyi məqalələr toplusudur.

**“Ələddinin macəraları və başqa nağıllar”**

Kitabda kiçik yaşlı uşaqlar üçün "Ələddinin macəraları", "Əlibaba və qırx quldur", "Tutuquşu şah", "Ağlayan şahzadə qız", "Saşa, Mənsur və hacıleyləklər" nağılları toplanıb.

**“Avstraliya xalqlarının nağılları”**

Qədim zamanlarda insanlar tayfalar şəklində yaşayırdılar. Onlar ov edər, qəribə işlər görərdilər. Hansı işlər? Oxu, bil!

# Şəhərli oğlan

*Deyirəm: «Balıq*
*Görmüsən torda?»*
*Deyir: «Görmüşəm,*
*Televizorda».*

*«Bəs bulaq necə,*
*Suyu buz bulaq?»*
*«Görmüşəm, - deyir, -*
*Kinoda ancaq».*

*«Araz dərindir,*
*Yoxsa Kür? - dedim.*
*«Hansı hansından*
*Böyükdür?» - dedim.*

*Dayandı, baxdı*
*Üzümə mat-mat...*
*Dedi: «Müəllim*
*Keçməyib heç vaxt!»*

# Avtobusda

*Əmi yerini verdi*
*Məni görən tək durub...*
*- Ay əmisi, əyləşin,*
*Uşaq deyil, oddur bu!*

*- Bu nə sözdür, deyirsən,*
*Nə olsun ki, anacan,*
*Oynayıram, qaçıram*
*Səhərdən axşamacan?!*

*Avtobus ki ev deyil,*
*Heç yana çatmır əlim.*
*Görüb əmi, yer verib,*
*Sağ olsun, qoy dincəlim!*

# Külək

*- Ay külək, nə əsirsən?*
*- Əsməsəm, olmaram mən.*
*- Olmağının xeyri var?*
*- Xeyri var ki, varam mən!*

*- Qışda nə xeyrin var, hə?*
*- Qışda yağış, qaram mən.*
*- Yazda bəs?*
*- Ağacları*
*Oyadan nübaram mən.*

*- Yayda nəsən, ay dəli?*
*- Yaydamı... baharam mən.*
*- Payızda bəs?*
*- Payızda*
*Aşıb-daşan varam mən;*
*Bağça dolu xəzələm,*
*Budaq dolu baram mən!*

# Qəşəm İsabəyli

## Qonaq

*Qonaq gəlir, deyəsən,*
*Nənəmdir, ey... can, ay can!*
*- Ver, götürüm zənbili,*
*Sənə zəhmət olacaq!*

*- Qocalmayıb ki nənə,*
*Ayağı var, əli var.*
*Bəs salamın, ay dəcəl,*
*Nənə var, zənbili var?!*

*- Səni gördüm, unutdum,*
*Ay nənə, salma səsə!*
*- Yox, məni yox, ay bala,*
*Zənbilimi görmüsən!*

***«İndi kimi dindirirsən, «yazıçı» çıxır; biri dostundan yazır, biri düşmənindən, biri də mənim kimi elə-belə, özündən yazır... Bu yazmaqla nəyəsə iddialı da deyiləm. Yəni mükafat-zad umacağım da yoxdur. Bircə umacağım odur ki, babam Qəhrəman bəyin Xəlsəsində məni yazıçı kimi qəbul eləsinlər. Ondan sonra qalır xalq... Kəndin səni yazıçı saydısa, xalq əlüstü sayacaq. Yazıçıya bundan artıq nə lazımdır ki...»***

***Bu sətirlərin müəllifi Qəşəm İsa oğlu İsabəyli 1948-ci il avqustun 14-də Kürdəmirin Xəlsə kəndində ziyalı ailəsində dünyaya gəlib. İbtidai təhsilini doğma kəndində alıb. Azərbaycan Dövlət Universitetinin geoloji-coğrafiya fakültəsini bitirib. Müxtəlif peşələrdə özünü sınayıb. Bakıdakı metronun tikintisində onun da əməyi var. Müəllim, televiziyada müxbir, kinostudiyada inzibatçı və redaktor işləyib, nəşriyyatlarda redaksiya müdiri və direktor kimi çalışıb. «Cik-Cik» uşaq qəzetinin təsisçisi və baş redaktoru, «Şirvannəşr»in təsisçisi və naşiridir. Azərbaycan Yazıçılar və Jurnalistlər birliklərinin üzvüdür.***

***Müxtəlif xalqların dillərindən tərcümələri var. Öz əsərləri də rus, ingilis, ukrayna, belarus və qırğız dillərinə tərcümə olunub.***

***İBBY-ın «Bookbird» uşaq jurnalında əsəri dərc olunmuş ilk azərbaycanlı yazıçıdır.***

***Çox maraqlı, yumor dolu hekayə-nağılları, şeirləri var. «Əkil-Bəkil» poeması ilin ən yaxşı uşaq kitabı Respublika müsabiqəsində qalib olub.***

# MƏNTİQİ SUAL



**1.** **Otaqda 50 şam yanırdı. Onun 20-ni söndürdülər. Neçə şam qalacaq?**



**2. İt hansı sürətlə qaçmalıdır ki, quyruğuna bağlanmış tavanın danqıltısını eşitməsin?**

**3.** Maşın dönəndə hansı təkəri fırlanmır?



**4.** Ehtiyac olanda onu suya atırlar, olmayanda isə qaldırırlar. O nədir?

**5.** Üç eyni trapesiyadan bərabəryanlı üçbucaq düzəlt (asan olsun deyə kağızda çəkə bilərsən). Trapesiyanın üst oturacağı yanlarına bərabərdir. Trapesiyaları üst-üstə qoymaq, kəsmək olmaz. Üçbucağın ortasında deşik, kənarları nahamar olmamalıdır.



## Ötən sayımızdakı məntiqi sualların cavabları:

1. Bir adam qohumundan 600 dəfə yaşlı ola bilər. Məsələn, əgər onun 50 yaşı, qohumunun isə bir ayı olarsa, bu mümkündür.
2. Dəmir bankanın içində buz vardı.
3. Srağagün, dünən, bu gün, sabah, birigün.
4. Birinci kağız tapmaq lazımdır, sonra dairə çəkmək asandır.
5. Yağış yağanda dovşan yaş ağacın altında oturur.

# Zəhər başındadır

Qədim Çində qız ərə gedəndə ərinin evində yaşayar, ona və anasına qulluq edərdi. Bir qız ərə getmişdi. Gün keçdikcə qaynanasının danlağından bezdiyindən ondan canını qurtarmaq istəyirdi.

O, atasının bitki satan dostunun yanına gəlib deyir:

- Qaynanamla daha yaşaya bilmirəm. Məni dəli edir. Kömək edərsiniz? Yaxşı pul verəcəm.

- Neyləyə bilərəm sənin üçün?

- Mənə zəhər verin. Qaynanamı zəhərləyim, canım qurtarsın.

- Yaxşı, kömək edərəm. Ancaq sən qaynananı dərhal öldürə bilməzsən, çünki adamlar nəyin baş verdiyini anlayarlar. Mən sənə elə otlar verəcəm ki, onlar qaynananı tədricən öldürsün. Bir də, şübhələrdən uzaq olmaq üçün sən gərək rəftarını dəyişəsən, hirsini azalt, qaynanana hörmət elə, onu dinlə, dözümlü ol. O vaxt qaynanan öləndə səndən kimsə şübhələnməz.

Gəlin razılaşdı. Otları götürdü və hər gün qaynanasının yeməyinə az-az əlavə etdi. Kişinin dediklərini də yerinə yetirdi: qaynanasını dinləyib ona hörmət eləməyə başladı. Qaynana gəlinin davranışının dəyişdiyini görüb sevindi, hamıya onun necə yaxşı insan olması barədə danışdı. Yarım ildən sonra qaynana-gəlin lap ana-qız oldular. Gəlin hərəkətindən peşman oldu. Bitki satan kişinin yanına gəlib dedi:

- Xahiş edirəm, qaynanamı ona verdiyim zəhərdən xilas edin. Onu öldürmək istəmirəm. O çox yaxşı qadındır.

Kişi gülüb dedi:

- Narahat olma. Mən sənə zəhər verməmişdim. Sənə verdiklərim ədviyyat idi. Zəhər isə sənin başındadır. Sən özün də o zəhərdən qurtuldun.




Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyatdan keçib.
**Qeydiyyat nömrəsi:** 2004
2006-cı ilin noyabrından ("Körpəm" adı ilə 2006-cı ilin martından) çıxır.
**Təşkilati dəstək:** Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi F.Köçərli adına Respublika Uşaq Kitabxanası

**Baş direktor və təsisçi:**
Fizurə Quliyeva,
əməkdar mədəniyyət işçisi
**Baş redaktor:** Ülviyyə Gülməmmədova
**Məktəblərlə iş:** İlahə Quliyeva

**Korrektor:** Zahirə Dadaşova
**Bədii tərtibat:** Elşən Qurbanov
**Yayım üzrə menecer:** Rafət Quliyev

**Üz qabığında:** Pərvanə və İlkin Hacızadələr


Müəlliflik hüququ "Göy qurşağı"na məxsusdur. Xüsusi icazə olmadan jurnalın surətini və yaxud elektron variantını çap etmək və yaymaq qanuna ziddir.


Ünvan: Bakı, AZ1022
S.Vurğun küçəsi - 88.
Tel: (+99412) 597 08 51,
(+99412) 597 08 79.


**Jurnalımıza abunə olmaq istəyirsinizsə, yuxarıdakı ünvana müraciət edə bilərsiniz.**
*goyqurshagi@mail.ru*
**Tiraj 3000**


1.20 AZN
www.clb.az
www.fb.com/clb.az